36 (1393) 11-17 sentyabr 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## AZƏRBAYCAN VƏ ÇİN ARASINDA ƏLAQƏLƏR HƏRTƏRƏFLİ STRATEJİ TƏRƏFDAŞLIQ MÜSTƏVİSİNDƏ İNKİŞAF EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə avqustun 30-da bu ölkəyə işgüzar səfəri baş tutmuşdur.

Avqustun 31-də Çinin Tiencin şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olmuşdur. Si Cinpin Azərbaycan ilə Çin arasında 30 ildən artıq dövr ərzində uğurlu əməkdaşlıq münasibətlərinin qurulduğunu və hazırda əlaqələrimizin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyini qeyd etmişdir.

Çin Xalq Respublikasının Sədri ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığını, energetika, o cümlədən bərpaolunan enerji, rəqəmsallaşma sahələrində əməkdaşlığın genişləndiyini vurğulamış, "Bir kəmər, bir yol" layihəsi çərçivəsində də Azərbaycan-Çin əməkdaşlığının möhkəmləndiyini deyərək, Azərbaycan ərazisindən Çin mallarının daşınmasının əhəmiyyətini qeyd etmiş, bu xüsusda Trans-Xəzər marşrutunun önəminə toxunmuşdur.

Si Cinpin Azərbaycan ilə Ermənistan arasında davamlı sülhün təmin olunması istiqamətində birbaşa dialoqun əhəmiyyətini qeyd etmişdir. Həmçinin Çin Xalq Respublikasının Sədri ölkəmizin suveren inkişaf modelinin Çin tərəfindən dəstəkləndiyini, Çinin başqa ölkələrin daxili işlərinə qarışmamaq prinsipinə sadiq olduğunu vurğulamışdır.

## AZƏRBAYCANLA ÇİN ARASINDA SƏMİMİ DOSTLUQ MÜNASİBƏTLƏRİ VƏ HƏRTƏRƏFLİ STRATEJİ TƏRƏFDAŞLIQ BAĞLARI MÖVCUDDUR



"Bu əlaqələrin dərinləşdirilməsi Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biridir". Bu sözləri Prezident İlham Əliyev sentyabrın 1-də Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatında keçirilən görüşdə demişdir. O demişdir: "Son iki ildə əlaqələrimiz keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Ötən il Astanada keçirilmiş ŞƏT Sammiti çərçivəsində biz strateji tərəfdaşlıq qurduq. Bu il mənim Çinə dövlət səfərim zamanı hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin təsis edilməsi barədə Birgə Bəyanat imzalandı. Bu tarixi hadisə Azərbaycan-Çin münasibətlərində yeni bir səhifə açdı. Azərbaycan beynəlxalq sülhün, təhlükəsizliyin və inkişafın təşviqi məqsədilə Çin tərəfindən irəli sürülmüş Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləmişdir. Biz, həmçinin Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş Qlobal İdarəetmə Təşəbbüsünü dövlətlərin suveren bərabərliyi, BMT Nizamnaməsi və beynəlxalq hüquqa hörmət əsasında beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş mühüm və vaxtında atılmış bir addım kimi alqışlayırıq".

## AZƏRBAYCAN AVRASİYANIN NƏQLİYYAT-LOGİSTİKA MƏRKƏZLƏRİNDƏN BİRİDİR

"Azərbaycan Ələt Beynəlxalq Dəniz Limanının buraxılış qabiliyyətini ildə 15 milyon tondan 25 milyon tona çatdırmaq niyyətindədir". Bu barədə Prezident İlham Əliyev "ŞƏT plyus" formatında keçirilən görüşdə qeyd edib.

O vurğulayıb: "Orta Dəhliz Azərbaycan vasitəsilə Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur. 2022-ci ildən bəri Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımaların həcmi təxminən 90 faiz artıb. Yüklərin bu dəhliz üzrə keçid müddəti əhəmiyyətli dərəcədə azalıb. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında bağlantının yaradılması üzrə bu yaxınlarda əldə olunmuş razılaşmalar beynəlxalq yükdaşımalar üçün tranzit imkanlarının genişlənməsinə xidmət edəcək".

Prezident İlham Əliyev Zəngəzur dəhlizinin mühüm əhəmiyyətini xüsusi vurğulayaraq qeyd edib: *"Əminəm ki, yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək".*

## "AZƏRBAYCAN İLƏ ÇİN ARASINDAKI QARŞILIQLI FƏALİYYƏT İKİTƏRƏFLİ GÜNDƏLİYİN BÜTÜN SPEKTRİ ÜZRƏ MÖHKƏMLƏNİR"

Bu fikirləri Prezident İlham Əliyev Tiencin şəhərində "ŞƏT plyus" formatında keçirilən görüşdə demişdir. *"Bu, siyasi, iqtisadi-ticari, sərmayə, enerji, nəqliyyat-logistika sahələrini, rəqəmsal iqtisadiyyatın, elm və texnologiyanın, təhsil və mədəniyyətin inkişafını ehtiva edir. Bu ilin iyul ayından bəri hər iki ölkənin vətəndaşları üçün vizasız rejim tətbiq olunur ki, bu da turizmin inkişafına təkan verir"*, - deyə dövlət başçısı vurğulayıb.

## "AZƏRBAYCAN REGİONDA ÇİNİN ETİBARLI TƏRƏFDAŞIDIR"



Bu barədə Prezident İlham Əliyev "ŞƏT plyus" formatında keçirilən görüşdə demişdir. *"Biz beynəlxalq və regional sülhün və təhlükəsizliyin qorunmasına töhfə veririk, genişmiqyaslı iqtisadi, nəqliyyat və enerji layihələri həyata keçiririk. Azərbaycan Çin Xalq Respublikasının Sədri tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biridir. Bu istiqamətdə ciddi praktiki layihələr reallaşdırırıq. Biz beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirir, müasir infrastruktur yaradırıq. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri yeni iqtisadi və nəqliyyat perspektivləri yaradıb"*, - deyə Prezident İlham Əliyev bildirib.





Çin Xalq Respublikasına səfər çərçivəsində İlham Əliyev Tiencində "China Energy Engineering Corporation Limited" şirkətinin rəhbəri vəzifəsini icra edən Ni Cen ilə görüşmüşdür.

***

İlham Əliyev Tiencində "Sichian Sunsync Photovoltaic Technology Co" şirkətinin təsisçisi və sədri ilə görüşmüşdür.

***

İlham Əliyev Tiencində "CETC" korporasiyasının baş direktoru ilə görüşmüşdür.

***

İlham Əliyev Tiencin şəhərində "CCCC" şirkətinin sədri ilə görüşmüşdür.

***

Tiencində dövlət və hökumət başçılarının və xanımlarının şərəfinə ziyafət verilib, konsert proqramı təqdim olunub.

***

Tiencində Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşmüşdür.

***

İlham Əliyevin Maldiv Prezidenti ilə görüşmüşdür.

***

İlham Əliyevin Pakistanın Baş naziri ilə görüşmüşdür.

***

İlham Əliyev Tiencində Asiya İnfrastruktur İnvestisiya Bankının prezidenti ilə görüşmüşdür.

***

İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşmüşdür.

***

İlham Əliyev Tiencin şəhərində "Powerchina group" şirkətlər qrupunun icraçı vitse-prezidenti ilə görüşmüşdür.

***

İlham Əliyev Tiencin şəhərində "China National Chemical Engineering" şirkətinin sədri ilə görüşmüşdür.

***

Sentyabrın 2-də Pekində yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümünə həsr olunmuş parad keçirilmişdir.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva paradı Çinin paytaxtı Pekindəki Tiananmen Meydanında izləmişlər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına işgüzar səfəri sentyabrın 3-də başa çatmışdır.

# AQEM-İN BEYİN MƏRKƏZLƏRİ FORUMUNUN 13-CÜ SESSİYASININ AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB

Bakıda sentyabrın 9-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Şanxay Beynəlxalq Araşdırmalar İnstitutunun (SIIS) birgə təşkilatçılığı ilə "İnkişaf və təhlükəsizliyin rezonansı: AQEM-in institusional transformasiyasında regional əməkdaşlıq və idarəetmə" adlı AQEM-in Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tədbir iştirakçılarına müraciətini səsləndirilib.

Açılış mərasimində çıxış edən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Baş katibi Kayrat Sarıbay qeyd edib ki, Prezident İlham Əliyevin Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının iştirakçılarına müraciəti, həqiqətən də ilhamverici oldu və tədbirin əhəmiyyətini daha da artırdı. Builki toplantı xüsusi önəm daşıyır, çünki Azərbaycanın sədrliyi ilə keçirilən ilk beyin mərkəzləri forumudur.

Onun sözlərinə görə, AQEM səmərəliliyin artırılmasını əsas prioritet hesab edir. Bu gün Asiya elm və texnologiya sahəsində yüksələn nüfuzu ilə qlobal inkişafın mühüm mərkəzinə çevrilir. Dövlətlərin artan qarşılıqlı asılılığı fonunda AQEM-in dəyəri bir daha aydın görünür. Bu, Asiya ölkələrinin strateji baxışlarını bölüşməsi üçün vacib platformadır.

***"Asiyanın dünya səhnəsində yüksələn təsiri AQEM-in əhəmiyyətini daha da artırır. Regional sabitlik isə həlledici rol oynayacaq. Əsas missiyamız böhrandan çıxış yollarını müəyyənləşdirmək və davamlı inkişafı təmin etməkdir. Bu baxımdan, builki mövzumuz olan "İnkişaf və təhlükəsizliyin rezonansı" dövrün çağırışlarına tam uyğun gəlir və regionumuzu formalaşdıran amillərin daha dərindən anlaşılmasına imkan verir.***

***Xüsusilə, bu il diqqətin ətraf mühit məsələlərinə yönəldilməsi böyük əhəmiyyət kəsb edib. Azərbaycanın COP29-a ev sahibliyi regional iqlim diplomatiyasını yeni səviyyəyə yüksəldib. Bu sahə gələcəkdə AQEM-in əsas sütunlarından biri olacaq. Üzv dövlətlərin əməkdaşlıq və dialoqa maraq göstərməsi isə müzakirələrin davam etdirilməsi üçün güclü zəmin yaradıb", - deyə Baş katib bildirib.***

*SIIS-in prezidenti Çen Dongxiao AQEM-in Beyin Mərkəzləri Forumunun önəmini özünü, ilk növbədə, dialoq imkanlarında göstərdiyinə diqqət çəkib. Onun sözlərinə görə, bərabər və səmimi ünsiyyət qlobal qeyri-sabitlik dövründə xüsusilə vacibdir:* ***"Dünyada multilateralizmə qarşı artan skeptisizm müşahidə olunur və yeni konsensusun qurulmasına ehtiyac var. AQEM bu istiqamətdə mühüm platformadır".***

O qeyd edib ki, AQEM-in Asiya qitəsini bütövlükdə əhatə etməsi böyük üstünlükdür. Qazanılan bilik və təcrübə yalnız regional əməkdaşlıq üçün deyil, həm də beynəlxalq ictimaiyyət üçün dəyərli töhfədir. Forum isə bu bilik mübadiləsinin əsas meydanıdır.

***"Təbii ki, çətinliklər də mövcuddur. Regionun bir çox ölkəsi təhlükəsizlik, inkişaf və idarəetmə çatışmazlıqları ilə üzləşir. Dialoq anlayışı və empatiya yaratsa da, bəzən fundamental fərqləri aradan qaldırmağa yetmir. Buna görə biz daha yaradıcı düşünməli, yeni yanaşmalar inkişaf etdirməliyik. Qarşıda isə böyük imkanlar dayanır. Dünya tədricən Qərb mərkəzli modeldən çoxqütblü nizama doğru irəliləyir. Asiya ölkələri bu transformasiyanın əsas aparıcı qüvvəsidir və qlobal modernləşmə prosesində mühüm rol oynayır. Bu şəraitdə AQEM-in Beyin Mərkəzləri Forumunun rolu daha da artacaq"***, - deyə SIIS-in prezidenti əlavə edib.

Çinin Xarici İşlər Nazirliyinin Avropa-Mərkəzi Asiya İşləri Departamentinin səfiri Yan Venbin isə vurğulayıb ki, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə sədrlik edən Azərbaycan qarşılıqlı fəaliyyət, rəqəmsallaşma və davamlı artım mövzusu çərçivəsində bir sıra mühüm əməkdaşlıq təklifləri irəli sürüb.

Yan Venbinin sözlərinə görə, Çin Azərbaycanın sədrliyini dəstəkləmək və AQEM çərçivəsində müxtəlif sahələrdə etimadın möhkəmləndirilməsi tədbirlərinin həyata keçirilməsinə, həmçinin AQEM-in məhsuldar sammitinin uğurla keçirilməsinə fəal töhfə vermək üçün bütün tərəflərlə işləyəcək.

***"AQEM region ölkələri arasında əlaqələrin genişləndirilməsində, qarşılıqlı etimadın möhkəmləndirilməsində və əməkdaşlığın inkişaf etdirilməsində önəmli və konstruktiv rol oynayır. Çin AQEM prosesini dəstəkləyir və onun aktiv iştirakçısıdır. Bizim ölkəmiz Asiyada və dünyada inkişaf naminə bir sıra mühüm anlayışlar və təşəbbüslər irəli sürür, o cümlədən sülh, əməkdaşlıq, inklüzivlik və inteqrasiyaya əsaslanan Asiya dəyərlərinin təşviqini, hərtərəfli, kooperativ və davamlı təhlükəsizliyi dəstəkləyir",*** - deyə Yan Venbin bildirib.

O qeyd edib ki, qlobal inkişaf təşəbbüsü, qlobal təhlükəsizlik təşəbbüsü və qlobal sivilizasiya təşəbbüsündən sonra bu yaxınlarda Tiencin şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının sammitində qlobal idarəetmə təşəbbüsü də təklif olundu. Bu anlayışlar və təşəbbüslər bir çox AQEM dövlətləri də daxil olmaqla, beynəlxalq səviyyədə tanınıb.

Daha sonra BMTM-nin İdarə Heyətinin sədri Fərid Şəfiyev və SIIS-nin prezidenti Çen Dongxiao Beyin Mərkəzləri Forumunun 13-cü sessiyasının gündəliyini təsdiq ediblər.

## "Azad olunmuş ərazilərdə yaşıl enerji zonalarının yaradılması hökumət üçün yüksək prioritetdir"

"İşğaldan azad olunmuş ərazilərdə yaşıl enerji zonalarının yaradılması hökumət üçün yüksək prioritetdir".

Bu sözləri Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) şöbə müdiri Şahmar Hacıyev AQEM Beyin Mərkəzləri Forumunun 13-cü toplantısı zamanı çıxış edərkən deyib.

O bildirib ki, müharibədən sonra Azərbaycan Ermənistanın işğalından azad etdiyi torpaqlarda nəqliyyat sisteminin yaxşılaşdırılmasına, "ağıllı kəndlərin" və "ağıllı şəhərlər"in dəstəklənməsinə diqqət yetirir. ***"Ümid edirəm ki, bu sənədlər bizə gələcəkdə enerji səmərəli tətbiqlərin potensialını daha geniş araşdırmağa imkan verəcək"***, - deyə o əlavə edib.

## "Çin Azərbaycanla birgə sənaye və logistika parkının yaradılmasında maraqlıdır"

"Çin Azərbaycanla müntəzəm qatarların istismarı, eləcə də sənaye və logistika parkının yaradılması üzrə qarşılıqlı əməkdaşlığı dərinləşdirməkdə maraqlıdır".

Bunu Çinin Çjetszyan Əyalət Xalq Hökumətinin vitse-qubernatoru və Partiya Qrupunun üzvü Ke Jixin Avropa Dəmiryol Ekspres marşrutunun 5 illiyi və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutundan keçən 237-ci qatarın (Yivu – Bakı) qarşılanma mərasimində deyib.

O, iki ölkə arasında daha sıx əməkdaşlıq vizyonunu formalaşdırmağa hazır olduqlarını vurğulayıb.

***"Biz müntəzəm qatarların istismarı, sənaye və logistika parkının yaradılması və standartların qarşılıqlı tanınması kimi sahələrdə qarşılıqlı əməkdaşlığı dərinləşdirmək üçün Azərbaycanın dövlət idarələri, müəssisələri və ticarət palataları ilə müntəzəm əlaqə mexanizmini yaratmağa hazırıq.***

***Biz, həmçinin, rəqəmsal iqtisadiyyat, yaşıl və aşağı karbonlu inkişaf, turizm və mədəniyyət sahələrində hərtərəfli əməkdaşlığı genişləndirəcəyik ki, inkişaf üçün böyük dostluq təməlləri daha da dərinləşsin",*** - deyə vitse-qubernator qeyd edib.

## Tramp marşrutu Azərbaycan və Ermənistan arasında sülhün əsas aspektidir

Trend xəbər verir ki, bunu ABŞ-nin İnkişafın Maliyyələşdirilməsi Koprasiyasının (DFC) idarəedici direktoru Kennet Encell Amerika biznes nümayəndə heyətinin Bakı səfərinin yekunlarına dair keçirilmiş brifinqdə diqqətə çatdırıb.

***"Mən belə başa düşürəm ki, qısa müddət ərzində, Orta Dəhliz üçün daha geniş imkanlar açılacaq. Əsas məqsəd malların qərbdən şərqə, sonra isə şərqdən qərbə, yəni mahiyyət etibarı ilə Avropadan Çinə və geri daşınmasını təmin etməkdir.***

***Mən hesab edirəm ki, bu, sıfır nəticəli oyun deyil, danışdığımız Orta Dəhliz Qazaxıstandan Azərbaycana, sonra Gürcüstana və daha sonra limanlara aparan yol olacaq. Bu, Qazaxıstandan Azərbaycana, sonra isə Türkiyə vasitəsilə gedən marşrutdan fərqlənəcəkmi – orada bunu etmək üçün kifayət qədər mal var, sadəcə malların daşınması üçün yeni bir yol açılacaq"***, - deyə o bildirib.

Bundan başqa, Kennet Encell qeyd edib ki, bu marşrut Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanmasında vacib mərhələ olub və bu barədə Prezident Tramp da açıqlama verib.

***"Əgər sülh varsa, məhz sülh sayəsində iqtisadi inkişafa nail ola bilərsiniz. İqtisadi inkişaf isə rifaha aparır. Bu, ABŞ hökumətinin işinin mahiyyətidir. Biz sadəcə açıq olduqda və sülh qurulduqda nələrin baş verdiyinin nümunəsini göstərmək istəyirdik, belə olduğu zaman biz dərhal investisiyaları cəlb edə bilərik. Konkret bu missiya çərçivəsində biz limanlar, nəqliyyat və logistika sahələrinə fokuslanmışıq. Buna görə də ABŞ hökuməti olaraq maliyyə alətlərini açıq şəkildə təqdim edirik - istər ixrac sahəsində, istər texniki-iqtisadi əsaslandırmalarda, istərsə də Azərbaycana investisiyalarda"***, - deyə o bildirib.

## Azərbaycan TDT ölkələri gömrük orqanları rəhbərlərinin iclasında iştirak edib

Sentyabrın 6-dan 8-dək Türküstan şəhərində (Qazaxıstan) Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan gömrük idarələri rəhbərlərinin 11-ci iclası keçirilib.

AZƏRTAC-ın Qazaxıstan Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin mətbuat xidmətinə istinadla verdiyi xəbərə görə, iclasda Macarıstan, Gürcüstan və Türkmənistandan olan müşahidəçilər də iştirak ediblər.

Qazaxıstan Maliyyə Nazirliyinin Dövlət Gəlirləri Komitəsinin sədri Jandos Duysembiyev çıxışında görüşün Türküstanda keçirilməsinin təkcə praktiki deyil, həm də dərin simvolik əhəmiyyətə malik olduğunu vurğulayıb. Onun sözlərinə görə, Türküstan Türk dünyasının mənəvi mərkəzi kimi qardaş xalqların birliyini və qarşılıqlı anlaşmasını təcəssüm etdirir və budəfəki görüş əməkdaşlığın gücləndirilməsi istəyinin daha bir təsdiqidir.

Sədr qeyd edib ki, son illərdə TDT ölkələri arasında iqtisadi-ticari əməkdaşlıq davamlı artım nümayiş etdirib ki, bu da rəqəmsal həllərin tətbiqi, prosedurların sadələşdirilməsi və etimadın gücləndirilməsinin nəticəsidir.

İclasın yekununda üç sənəd imzalanıb: 11-ci iclasın Protokolu; TIR Konvensiyasına 11 saylı Əlavənin tətbiqi ilə bağlı Birgə Bəyanat (1975); risklərin idarə edilməsi və gömrük laboratoriyalarının inkişafı sahəsində əməkdaşlığa dair memorandumlar

## 347 Çin şirkəti sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti sahələrində aktiv fəaliyyət göstərir



Çinin Siamen şəhərində davam edən 25-ci Çin Beynəlxalq İnvestisiya və Ticarət Sərgisi (CIFIT) çərçivəsində "Bir kəmər, bir yol" beynəlxalq investisiya əməkdaşlığı mövzusunda tematik iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, "Bir kəmər, bir yol" təşəbbüsü ölkələrinin investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair müzakirələrin aparıldığı iclasda çıxış edən Baş nazirin müavini, Azərbaycan-Çin Hökumətlərarası Komissiyasının həmsədri Şahin Mustafayev tədbirin ölkələrimizi bir-birinə daha sıx bağlayan, sərmayə və ticarət üçün konkret imkanlar yaradan nüfuzlu platforma olduğunu bildirib.

Baş nazirin müavini növbəti mərhələdə ticarət strukturunun daha da şaxələndirilməsi, eyni zamanda logistik xərclərin optimallaşdırılması ilə rəqabət qabiliyyətinin yüksəldilməsi hədəflərini vurğulayıb.

Şahin Mustafayev 1995-ci ildən Azərbaycana Çindən 942,3 milyon dollar həcmində birbaşa investisiya yatırıldığını, bununla yanaşı, Çin biznesinin ölkəmizdə geniş təmsil olunduğunu, ölkəmizdə 347 Çin şirkətinin sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət sahələrində aktiv fəaliyyət göstərdiyini vurğulayıb.

Ş.Mustafayev Azərbaycanın xüsusi iqtisadi zonalarında, o cümlədən Ələt Azad İqtisadi Zonasında və ölkəmizin sənaye parklarında biznesin həyata keçirilməsi üçün hər cür əlverişli şərait yaradıldığını deyib, bundan başqa, hökumətin Azərbaycanda əsas bərpa-quruculuq bölgələri olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında özəl investisiyaların cəlb edilməsini fəal şəkildə təşviq etdiyini bildirib.

***"Sözügedən ərazilərdə, eləcə də müəyyən edilmiş xüsusi iqtisadi zonalar 10 ilə qədər vergi güzəştləri də daxil olmaqla qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq üçün vacib imkanlar yaradır. Bu kontekstdə cari ilin 22-23 sentyabr tarixlərində Bakıda 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu keçiriləcək. Forum Şərqlə Qərbin kəsişməsində yerləşən ölkəmizi dayanıqlı ticarət və təchizat zəncirlərinin gələcəyini formalaşdıran açıq bir platforma kimi təqdim edəcək"***, - deyə Şahin Mustafayev əlavə edib.

Baş nazirin müavini Azərbaycanın Avrasiyanın təbii körpüsü olduğunu, Bakı-Tbilisi-Qars dəmir yolu da daxil olmaqla Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin "Bir kəmər, bir yol" təşəbbüsünün dayanıqlı hissəsini təşkil etdiyini vurğulayıb: "Ötən il Orta Dəhliz üzrə tranzit daşımalar 86 faiz, cari ilin yanvar-iyul aylarında isə 44 faiz artıb".

Azərbaycan nümayəndə heyətinin Çinin "Hasee" və "Kinglong" şirkətlərinin rəhbərləri ilə görüşü olub.

## Azərbaycanda Təmiz Enerji Mərkəzi fəaliyyətə başlayıb

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Təmiz Enerji Mərkəzinin (CECECO) İdarə Heyətinin onlayn formatda ilk iclası keçirilib.

Energetika Nazirliyindən bildirilib ki, bununla da ötən ilin noyabrında COP29 çərçivəsində İƏT və BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO) ilə birgə Azərbaycanda yaradılan Təmiz Enerji Mərkəzi (CECECO) rəsmi fəaliyyətə başlayıb.

Energetika naziri Pərviz Şahbazov bildirib ki, Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlamasının vacibliyi İƏT-in 17-ci Zirvə toplantısının yekun sənədi - Xankəndi Kommünikesində də vurğulanır. Mərkəzi təşkilat və üzv dövlətləri arasında mövcud və potensial enerji tərəfdaşlıqlarını gücləndirməklə, regionda bərpa olunan enerji layihələrinin inkişafını və enerji keçidini dəstəkləyəcək.

"Hazırda üç İƏT üzvü - Türkiyə, Qazaxıstan və Özbəkistan ilə yaşıl enerji dəhlizlərinin yaradılması üzrə əməkdaşlıq edirik. "Azərbaycan-Türkiyə-Avropa" və ***"Mərkəzi Asiya-Azərbaycan" yaşıl enerji dəhlizləri regional enerji əlaqələrinin və regional elektrik bazarının inkişafını hədəfləyən strateji təşəbbüslərdir. Bu layihələr İƏT regionunda enerji əməkdaşlığını möhkəmləndirəcək, regional enerji şəbəkələrini birləşdirəcək və emissiyaların azaldılmasına nail olmaq üçün vahid strateji platforma yaradacaq"***, - deyə nazir əlavə edib. Bildirilib ki, ev sahibi ölkə olaraq Azərbaycan ədalətli enerji keçidi üzrə milli, regional və İƏT miqyaslı məqsədlərə töhfə verəcəyinə inanaraq mərkəzi dəstəkləməyə sadiqdir.

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Əsəd Məcid Xan Təmiz Enerji Mərkəzinin ev sahibliyini üzərinə götürdüyü üçün Azərbaycana təşəkkürünü çatdırıb. Baş katib bildirib ki, mərkəzin fəaliyyətə başlaması üçün göstərilən səylər Azərbaycanın regional əməkdaşlığın və karbon emissiyasının azaldılması gündəliyinin irəlilədilməsində qərarlı və fəal rolunun sübutudur: ***"Əminik ki, mərkəz regional davamlı enerji mərkəzlərinin qlobal şəbəkəsinin güclü komponentinə çevriləcək".***

İclasda təşkilata üzv dövlətlər - Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə, Pakistan və BMT-nin Sənaye İnkişafı Təşkilatı (UNIDO) təmsil olunub. Ölkələrin yaşıl enerji gündəliyini qlobal tendensiyalara uyğun və koordinasiyalı həyata keçirməsi üçün mərkəzin fəaliyyətində fəal iştirak və dəstək göstəriləcəyi vurğulanıb.

İclas zamanı mərkəzin Daxili Qaydaları təsdiqlənib və Aysel Yaqubova Təmiz Enerji Mərkəzinin icraçı direktoru təyin edilib. İdarə Heyətinin ikinci iclasının 2026-cı ilin birinci yarısında keçirilməsinə qərar verilib.

# “Vaşinqton razılaşmaları: sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi”

***Sentyabrın 9-da Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyasının “Vaşinqton razılaşmaları: sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi” mövzusunda xüsusi iclası keçirilib.***

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, möhtərəm cənab Prezident İlham Əliyev avqust ayının 7-si və 8-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə bu ölkəyə işgüzar səfər edib. Səfər çərçivəsində aparılmış danışıqlar, əldə olunmuş razılaşmalar və imzalanmış sənədlər fonunda əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin Vaşinqton səfəri tarixi əhəmiyyətə malikdir. Belə ki, Vaşinqton razılaşmaları yalnız Azərbaycan-Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətləri, Azərbaycan-Ermənistan sülh gündəliyi baxımından mühüm məqamları ilə deyil, həm də Cənubi Qafqazda və daha geniş regionda proseslərə ciddi şəkildə təsir göstərən tərəfləri ilə yadda qaldı.

Milli Məclisin sədri deyib ki, böyük liderləri fərqləndirən ən mühüm xüsusiyyətlər onların dövlətçilik təfəkkürü, strateji və yaradıcı düşünmək bacarığı, cəsarəti, prinsipiallığı və diplomatik məharətidir. Onlar öz düşüncələrini qətiyyətlə və ardıcıl surətdə həyata keçirir, yeni tarixi reallıqları yaradır.

Vaşinqton razılaşmaları da ilk növbədə məhz bu prizmadan qiymətləndirilməlidir. Bu gün qürurla bir daha cənab Prezident İlham Əliyevin irəli sürdüyü təşəbbüslərin yalnız və yalnız sülhə, əməkdaşlığa və tərəqqiyə xidmət etdiyini bariz şəkildə təsdiq etdi.

Vaşinqtonda imzalanmış Birgə Bəyannamə sülh sazişinin rəsmi şəkildə imzalanması üçün Azərbaycanın irəli sürdüyü hər iki şərti təsbit etdi. İlk nəticə olaraq, artıq ATƏT-in Minsk Qrupu ləğv olundu.

İnanırıq ki, Vaşinqtonda əldə edilmiş razılaşmalar heç bir kənar müdaxilə olmadan tam şəkildə yerinə yetiriləcək, Ermənistanın Konstitusiyasına müvafiq dəyişikliklər edildikdən sonra iki ölkə arasında rəsmi sülh sazişi imzalanacaqdır.

Çıxışının sonunda Sahibə Qafarova vurğulayıb ki, Azərbaycanın və Cənubi Qafqazın taleyində dönüş nöqtəsi olan, daha geniş regionda proseslərə istiqamət verən Vaşinqton razılaşmaları uzaqgörən siyasətin çətinlikləri qələbələrə çevirməyə qadir olduğunu parlaq surətdə təsdiq edir. Bu gün xalqımızın arzu və istəkləri reallığa çevrilir, regionumuzda uzunmüddətli sülh, əməkdaşlıq və tərəqqi üçün möhkəm təməl yaradılır. Bütün bunlar isə möhtərəm cənab Prezident İlham Əliyevin sülh diplomatiyasının və müdrik liderliyinin təntənəsidir.

**Sonra iclasda mövzu ilə bağlı deputatların çıxışları dinlənilib.**



söyləmək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına tarixi səfəri zamanı əldə edilmiş razılaşmalar Ümummilli Lider Heydər Əliyevin milli maraqlara əsaslanan siyasi kursunun davam etdirilməsi yolunda qazanılmış ən böyük uğurlardan biridir.

Bu hadisənin Konstitusiya və Suverenlik ilində baş verməsi isə dərin rəmzi məna daşıyır. Ulu Öndərin dövlətçilik irsi və yaratdığı dəyərlər onun layiqli davamçısı olan möhtərəm cənab Prezidentin fəaliyyəti ilə qorunub saxlanılır və daha da zənginləşdirilir.

Spiker qeyd edib ki, dövlət başçısının Vaşinqton səfərini ikitərəfli münasibətlər kontekstində qiymətləndirsək, bu səfər Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması ilə xarakterizə olundu. Əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi əzmi, həmçinin Prezident Trampın 907 saylı düzəlişin icrasını dayandıran sənədi imzalamasında öz ifadəsini tapdı. Burada Prezident Trampın Cənubi Qafqaz reallıqlarını obyektiv qiymətləndirən, sülhə və əməkdaşlığa əsaslanan mövqeyi də əhəmiyyətli rol oynadı.

Dövlət başçısı əzəli torpaqlarımızın otuz illik işğalına son qoyulmasına, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpasına nail oldu. O həm də məlum prinsiplər əsasında sülh gündəliyini müəyyən edərək, bu gündəliyin həyata keçirilməsini təmin etdi.

Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Prezidentinin və Ermənistan Baş nazirinin görüşünə dair Birgə Bəyannamənin imzalanması, “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş” layihəsinin paraflanması haqq-ədalətin zəfərini ifadə edir.

Spiker çıxışında deyib ki, Vaşinqton razılaşmalarının nəticəsi olaraq, dövlət başçısı cənab İlham Əliyevin irəli sürdüyü və ardıcıl surətdə müdafiə etdiyi Zəngəzur dəhlizi təşəbbüsünün reallığa çevrilməsi də tarixi əhəmiyyət daşıyır. Bu dəhliz yalnız Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin etmir, o həm də Avrasiyanın nəqliyyat xəritəsini dəyişir və daha geniş bir regionda işbirliyi üçün yeni imkanlar yaradır. Heç şübhəsiz, Bakı-Tbilisi-Ceyhan, Cənub Qaz dəhlizi kimi layihələr Avrasiyanın enerji xəritəsini dəyişdiyi kimi, Zəngəzur dəhlizi də Avrasiyanın nəqliyyat xəritəsinə önəmli yeniliklər gətirəcək. Birləşmiş Ştatların bu məsələdə dəstəyi bəzi ölkələrin Azərbaycana qarşı əsassız hücumlarının və qarayaxma kampaniyasının üzərindən də xətt çəkdi.

Qeyd olunub ki, Prezident Donald Trampın Zəngəzur dəhlizini “Beynəlxalq sülh və rifah üçün Tramp marşrutu” adlandırması heç də təsadüfi deyil. Bu

Deputatlar bildiriblər ki, Prezident İlham Əliyevin Vaşinqton səfəri zamanı Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan Prezidentinin və Ermənistan Baş nazirinin görüşünə dair Birgə Bəyannamə imzalandı, “Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş” layihəsi paraflandı və Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi üçün beynəlxalq zəmanət əldə edildi. Qeyd olunub ki, bu razılaşmalar, eyni zamanda Azərbaycanın ABŞ ilə əlaqələrinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsidir və ölkəmizin beynəlxalq iqtisadi inteqrasiyasının daha da genişlənməsinə öz töhfəsini verəcək. Diqqətə çatdırılıb ki, Zəngəzur dəhlizi yaranmaqda olan yeni tarixin mühüm layihəsi olacaq və onun açılması Azərbaycanın Naxçıvanla birbaşa əlaqəsini təmin etməklə yanaşı, Avropa və Asiyanı, həmçinin bütün Türk dünyasını birləşdirəcək.

Çıxış edənlər Prezident İlham Əliyevin avqustun 7-8-də ABŞ-yə səfərinin həm də Azərbaycanla ABŞ münasibətləri baxımından mühüm tarixi əhəmiyyət daşıdığını bildiriblər.

Millət vəkilləri səfər zamanı keçirilən Azərbaycan-ABŞ sammitini ölkələrimiz arasında münasibətlərdə tarixi dönüş, keyfiyyətcə yeni mərhələyə yüksəldilməsi kimi dəyərləndiriblər. Vurğulanıb ki, Vaşinqton görüşündə iki ölkə arasında yeni strateji mərhələnin başlanğıcı qoyulub. Sammit çərçivəsində imzalanan Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu iki ölkənin əməkdaşlığının enerji, ticarət, müdafiə, süni intellekt və rəqəmsal infrastruktur kimi prioritet sahələr üzrə daha da dərinləşdirilməsini nəzərdə tutur. Memorandum əsasında Strateji Tərəfdaşlıq Xartiyasının altı ay ərzində hazırlanması qərara alındı ki, bu da hər iki tərəfin ciddi siyasi iradəsini nümayiş etdirir.

Deputatların sözlərinə görə, Ağ evdə uzun illər Azərbaycana qarşı ədalətsiz sanksiya kimi istifadə olunan “Azadlığa Dəstək Aktı”na 907-ci düzəlişin tətbiqini dayandırması isə ikitərəfli münasibətlərdə yeni və olduqca parlaq bir səhifənin açılmasının simvolu oldu.

Onlar ABŞ Prezidenti cənab Donald Trampın bu qərarı məhz cənab Prezident İlham Əliyevin iştirakı ilə imzalamasını dövlətimizin başçısına və Azərbaycana göstərilən xüsusi hörmətin bariz nümunəsi kimi qiymətləndiriblər.

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# Vaşiqton razılaşması Azərbaycan və Ermənistanı böyük sülhə aparan Yol Xəritəsidir

***Azərbaycanın 44 günlük Vətən müharibəsində və bir günlük antiterror əməliyyatı zamanı mümkünsüz görünən nəticələr əldə etdiyi kimi, postmüharibə dövründəki səyləri nəticəsində də bir zamanlar mümkünsüz görünən nəticələr seriyasını davam etdirir.***



Bu kontekstdə avqustun 8-də Vaşinqtonda imzalanan Azərbaycan ilə ABŞ arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsini nəzərdə tutan qarşılıqlı anlaşma memorandumu, həmçinin üçtərəfli Birgə Bəyannamə xüsusi tarixi əhəmiyyət daşıyır. Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında SAZİŞ Azərbaycanın 44 günlük Vətən müharibəsindəki zəfərindən sonra Cənubi Qafqazın siyasi tarixində baş verən ən önəmli hadisələrdən biridir. Beş il bundan əvvəl hərb meydanında tarixi qələbə qazanan Azərbaycan bu dəfə diplomatiya müstəvisində də çox mühüm bir qələbəyə imza atdı. Vaşinqton razılaşmaları mahiyyət etibarı ilə beynəlxalq hüquqa, beynəlxalq ictimaiyyətin sülh, əmin-amanlıq istəklərinə və haqq-ədalətə əsaslanır. Sülh müqaviləsi adlandırılan Vaşiqton razılaşması əslində Azərbaycan və Ermənistanı böyük sülhə aparan Yol Xəritəsidir. Bu mühüm sənəddə nəzərdə tutulanların sistemli şəkildə həyta keçirlməsi Cənubi Qafqaza münasibətdə məkrli ssenarilərə əsaslanan siyasətin kitabını bağlayır və regionumuz üçün dayanıqlı sülh və sabitliyə dair yeni kitabda yeni səhifələr açır. Vaşinqton razılaşmaları Cənubi Qafqazın gələcək geosiyasi mənzərəsini şəkilləndirir. Vaşinqtonda keçirilən görüşlər və imzalanan sənədlər Cənubi Qafqazda dayanıqlı sülhə hesablanıb. Sənədlər məzmunu göstərir ki, Cənubi Qafqaz üçün çox perspektivli yeni dövr başlayıb. Postsovet məkanında uzun illər diqtə olunan köhnə qaydalar artıq işləmir və bu kontekstdə Azərbaycan beynəlxalq münasibətlər sistemində yenu orbitə çıxır. Ona görə də Vaşinqton razılaşmalarının reallaşdırılması Cənubi Qafqazda geosiyasi mənzərəni və arxitekturanı xeyli dərəcədə dəyişdirıcək. Azərbaycan uzun illərdir davam edən münaqişənin başa çatması istiqamətində öz siyasi iradəsini birmənalı şəkildə ortaya qoyub və reallaşdırmağa başlayıb. Ermənistan tərəfi də bu sahədəki siyasi iradəsinə davamlı xarakyer versə, ortaya qoyulan müştərək siyasi iradə və konstruktiv mövqe ABŞ-nin dəstəyi ilə bu sahədə gözlənilən çətinliklərin aradan qaldırılmasında və Vaşinqton sazişində öz əksini tapan hədəflərə nail olunmasında mühüm rol oynayır və oynamaqda davam edəcək: Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Bəyannamə Azərbaycanın 2020-ci il qələbəsini, 2023-cü il razılaşmasını və regionda qurduğu yeni təhlükəsizlik-siyasi nizamı bir daha təsdiq edir. Bu Bəyannamə ABŞ-nin Azərbaycanın yanında olduğunu və ölkənin yaratdığı yeni geosiyasi reallıqları tanıdığını göstərdi. Görünən budur ki, ABŞ-nin dəstəyi ilə Azərbaycanın Cənubi Qafqazda aparıcı dövlət kimi mövqeyi daha da möhkəmlənəcək. Bu, ölkəmizin beynəlxalq münasibətlər sistemində də mövqeyini möhkəmlədək. İmzalanan Birgə Bəyannamənin əsas müddəalarından biri Azərbaycan və Ermənistan arasında nəqliyyat və kommunikasiya əlaqələrinin açılması öhdəliyidir. Bu kontekstdə Bəyannamədə “Azərbaycanın əsas ərazisi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz rabitə" bəndi xüsusi vurğulanır. Bu, Ermənistan ərazisindən keçəcək Zəngəzur dəhlizinin açılması üçün hüquqi əsas yaradır. Zəngəzur dəhlizinin açılmasına razılığın əldə olunması təkcə Azərbaycan və Ermənistan üçün yox, bütövlükdə bölgə ölkələrinin xeyrinə olan bir variant kimi çox əhəmiyyətlidir.

Zəngəzur dəhlizinin açılması Azərbaycanın Türkiyə və Türk dünyası arasında əlaqələrinin güclənmsinə də öz töhfəsini verəcək. Həmin dəhlizin fəaliyyəti bölgəmizi sülh və tərəqqiyə aparan yol olacaq. Bəyannamə ABŞ-nin Azərbaycanla münasibətlərinin “strateji tərəfdaşlıq” səviyyəsinə qaldırılmasına yol açır. Bu,Azərbaycanın təhlükəsizlik, energetika, iqtisadi və digər sahələrdə ABŞ ilə daha sıx əlaqələr qurmaq imkanlarını xeyli genişləndirəcək. ABŞ prezidenti tərəfindən Konqresin 907-ci düzəlişinin fəaliyyətinin dayandırılması istiqamətində atılan addımın ardından həmin düzəlişin ümumiyyətlə ləğv edilməsinə nail olunması Azərbaycanın Cənubi Qafqazda regional gücə çevrilməsinə mühüm töhfə verəcək. Vaşinqton razılaşmaları Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli, uzaqgörən və milli maraqlara əsaslanan siyasətin məntiqi nəticəsi və liderliyinin bariz göstəricisidir. Vaşinqton razılaşmaları Cənubi Qafqaza sülh və sabitlik mərhələsinin gətirilməsinə hesablanıb. Vaşiqton sazişinin reallaşdırılması ilə həm region dövlətləri, həm də beynəlxalq güc mərkəzləri üçün yeni siyasi və iqtisadi balans yaranacaq. Belə şəraitdə Cənubi Qafqazda dayanıqlı sülh daha tez bərqərar olmuş olar. Azərbaycanın regionumuzda ümumi sabitlik, təhlükəsizlik və rifaha hesablanmış səylərinin gerçəkləşdirilməsi qlobal sülh, sabitlik və əmin-amanlığa da öz töhfəsini vermiş olar və dünyanın qaynar nöqtələri kimi tanınan digər regionlar üçün də örnək ola bilər. Ona görə də bütün qüvvələr fikirdə, sözdə və əməldə Azərbaycan və Ermənistan arasında imzalanan Cənubi Qafqazın perspektiv geosiyasi düzəni ilə bağlı beynəlxalq aləmdə ciddi dəstək alan Vaşinqton razılaşmalarını dəstəkləməli, buna səmiyyətləri çatmayanlar isə heç olmasa Cənubi Qafqaz xalqlarının sülh və əmin-amanlıq şəraitində yaşamaq haqqını tanımalıdır. Bu, Azərbaycan və Ermənistanın maraqlarını ifadə edən sülh müqaviləsinin optimal müddətdə imzalanması və ratifikasiyası üçün çox vacibdir.

**Əli Məsimli**
**Milli Məclisin üzvü**

# Dövlət satınalmalarının ÜDM-ə nisbəti 1,8 faiz bəndi artıb



Ötən il Azərbaycanda ÜDM-in, həmçinin, dövlət büdcəsinin xərclərinin artması fonunda dövlət satınalmalarına cəlb olunmuş vəsaitin həcmində artım müşahidə edilib, əvvəlki illə müqayisədə satınalma məbləğinin ÜDM-ə nisbət göstəricisi 1,8 faiz bəndi, xərclərə nisbəti isə 5,3 faiz bəndi artmaqla, müvafiq olaraq 7,8% və 26,1% təşkil edib. Bu barədə Trend Hesablama Palatasına istinadən xəbər verir. Bildirilib ki, ölkədə bu sahədə baş verən əsas dəyişikliklərdən biri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun yeni redaksiyada qüvvəyə minməsi olub:

***"Bu dəyişiklik həm dövlət satınalmalarının məbləğinə, həm də metodologiyasına əhəmiyyətli təsir göstərib. Yeni qanunvericilik çərçivəsi satınalmaların maliyyə vəsaiti hesabına həyata keçirilməsini nəzərdə tutur ki, bu da Qanunun əhatə dairəsinin genişlənməsinə imkan yaradıb".***

"Bundan əlavə, əvvəlki qanunda satınalmalardan istisna edilə bilən məbləğlər yeni qanunla əhatə dairəsinə daxil edilmişdir ki, bu da həm say, həm də məbləğ baxımından satınalmaların artmasına səbəb olub.

2024-cü ildə ölkə üzrə 19602 satınalma proseduru baş tutub ki, bu da 2023-cü illə müqayisədə 57%, 2022-ci illə müqayisədə isə 62% artım deməkdir. Satınalmaların ümumi məbləği isə 9845 mln. manat təşkil edib ki, bu da müvafiq olaraq 30,5% və 45,2% artımı göstərir", - deyə məlumatda qeyd edilib.

# Правда Алиева взорвала Кремль: почему одно интервью стало кошмаром для Москвы

***Удивительное всё-таки дело – российская официальная пропаганда. Удивительное прежде всего в своей, пардон, топорной примитивности. На днях азербайджанская, да и не только азербайджанская, аудитория получила возможность в очередной раз в этом убедиться.***

Напомним: президент Азербайджана Ильхам Алиев дал интервью телеканалу «Аль-Арабия», где, в числе прочего, напомнил: «После распада Российской империи в 1917 году была образована Азербайджанская Демократическая Республика. Это была первая демократическая республика в мусульманском мире, основанная в мае 1918 года. Она просуществовала до апреля 1920 года, когда российская армия вторглась в Азербайджан и оккупировала страну. Большевики, совершившие революцию 1917 года, обманули народ. Их лозунгами были: «фабрики и заводы - рабочим, земля - крестьянам, свобода - народам». Мы создали своё собственное государство. Но большевики отняли его у нас».

Строго говоря, это не историческая сенсация. О том, что XI Красная Армия оккупировала независимую Азербайджанскую Демократическую Республику, сегодня в нашей стране написано даже в школьных учебниках, в том числе на русском языке, не говоря об исторической литературе. Но сейчас, после интервью президента, в прокремлёвском медиапространстве – форменная истерика. Журналисты и Z-блогеры брызжут слюной и бегают по потолку, пытаясь продвигать старые установки в стиле: **«Азербайджан как государство существует только благодаря СССР», «вас придумал Ленин»** и вообще исторически такого государства, как Азербайджан, не существовало. Были, дескать, отдельные ханства.

Ну что же, всем этим журналистам, блогерам, влогерам и прочим ютуберам можем только посоветовать… Нет, не только почитать про государства Атабеков, Ширваншахов или Сефевидов. Такого их «державный мозг» просто не выдержит. Поэтому посоветуем обратиться в российские исторические архивы. А ещё – почитать учебники истории. И желательно не только те, которые выходят под редакцией «обладателя лишней хромосомы» Владимира Мединского.

Пётр I в своём указе от 12 июня 1724 года упоминает «Карабаг, Ганжа, Еривань, Нахичевань и прочие ардибижанские провинции». Ещё в XVIII веке русский офицер и представитель Российской империи в Грузии С.Д. Бурнашев писал об «…Адребижанскихъ городахъ Эривани и Генже с ихъ землями…». И указывал далее: «К теперешнему положению тех земель, которые под именем Адребижан разумеются, начиная с севера прилежит Грузия, то есть Царство Кахетинское и Карталинское (хотя и оныя пред сим в числе земель Адребижанских почитались); от востока море Каспийское и провинция Гилян, от полудня [юга] область Арак, от запада Турецია [Турция]».

Император Пётр II в своём указе от 1727 года упоминает **«всё пространство, заключающееся между Курою и Араксом, то есть весь Адирбижан».**

Можно привести и отрывок из указа российского императора Павла I на имя Государственной коллегии иностранных дел в 1799 году: **«…в Адербайджане, области, соседней с Портой Оттоманской… владения, управляемые особыми ханами, как то Ганжинским, Эриванским, Хойским, Карабагским, Тебризским и другими…».**

Проще говоря, присматриваясь к Южному Кавказу, российские монархи, военные и дипломаты чётко выделяли не только отдельные ханства, но и Азербайджан как историческую область! И да, территория нынешней Армении тогда рассматривалась как часть Азербайджана. «Армению» там создали уже позже, после первой российской оккупации, когда начали переселять на земли Эриванского и Карабахского ханств этнических армян из Персии и Османской империи. Но это отдельная и сугубо историческая тема. Просто запомним и повторимся: в XVIII веке Россия уже видела на карте не только отдельные ханства, но и Азербайджан.

Более того, в те годы такое положение дел никого не удивляло. Через период «феодальной раздробленности» прошли очень многие страны и народы. Достаточно вспомнить Германию с её многочисленными курфюрстами, баронами и т. д. и прочитать о том, как это «лоскутное одеяло» объединял «железом и кровью» Отто фон Бисмарк. Более того, сегодня на карте мира есть Германия, а есть ещё и Австрия, где тоже говорят на немецком языке. И что же? По логике кремлёвских шовинистов, с их тухлой установкой «государственность всех народов на постсоветском пространстве существует только благодаря СССР», Германия – это ещё не государство? Или же возьмём арабские страны, которых насчитывается аж два десятка. И что же? Это означает, что у арабов нет своей государственности?

Есть Саудовская Аравия, есть Катар, есть Марокко, есть Тунис, есть Египет, а вот государственности нет? Точно так же период «феодальной раздробленности» переживала Италия, которая сложилась в единое государство только в XIX веке. И это, по логике кремлёвских пропагандистов, означает, что у Италии нет никакого государственного статуса?

Наконец, можем обратиться к истории самой России. Где, хочется это признавать или не очень, а государственность начинается с династии Рюриковичей, то есть варягов. Точнее, викингов. Само слово «Русь» на древнескандинавских диалектах означает «гребцы в лодке» или «дружина князя». Именно на стадии феодальной раздробленности нынешняя Россия подпадает под власть Золотой Орды. В какой степени последняя российская правящая династия Романовых была «русской по крови» — очень неудобный вопрос. Происходили Романовы от всё тех же викингов Рюриковичей. А уж насколько разбавили кровь династические браки – большой вопрос. По подсчётам многих историков, последний царь Николай Романов был русским не более чем на 1%.

После падения российского императорского трона с этническим происхождением руководителей тоже та ещё «напряжёнка». Об этническом происхождении Ленина особо распространяться не принято, но то, что он не был чистокровным этническим русским, сомнений нет. Три десятка лет у руля страны стоял этнический грузин Иосиф Джугашвили, он же Сталин. Затем – украинец Хрущёв, ещё один этнический украинец Брежнев… Получается, что первым этническим русским на посту главы СССР оказался Михаил Горбачёв, и именно при нём СССР перестал существовать. Есть и куда более серьёзные и неудобные факты. 12 июня 1990 года по инициативе Бориса Ельцина Верховный Совет РСФСР принимает Декларацию о государственном суверенитете РСФСР. Россия, по сути дела, выходит из состава Советского Союза. А это как понимать? Выходит, что Россия появилась на карте мира только в 1990 году?

А если серьёзно, то людям, претендующим на роль политических экспертов, пора бы уяснить для себя некоторые основополагающие вещи. Вне зависимости от того, кто и когда появился на карте мира, кто возник исторически, а кого сколотили в качестве форпоста, если государство признано ООН и мировым сообществом, к нему надо относиться соответственно. Без попыток играть в державное высокомерие и «старших» или «младших» братьев. И тем более через три с лишним десятка лет после распада СССР не пытаться вести себя так, будто бы он ещё существует на карте.

Самое обидное – в 1991 году, когда СССР перестал существовать, у Москвы появился исторический шанс откреститься от политической ответственности за оккупацию 1920 года. Но на это банально не хватило политической мудрости. И вот уже Лавров щеголяет в толстовке с надписью «СССР», а на РосТВ выходит, например, очередной выпуск программы Сергея Медведева «Загадки века» — о генерале Михаиле Ефремове и о том, как «в 1920 году 200 бойцов под его командованием захватили Баку, в котором находилось враждебное большевикам буржуазное правительство мусаватистов. За несколько часов военно-политическая обстановка в Закавказье полностью меняется. В результате одной лишь успешной атаки Советская Россия возвращает себе территорию Азербайджана и, главное, бакинские нефтяные промыслы». Но, как оказалось, та оккупация была надолго, но не навсегда.

А теперь российским пропагандистам волей-неволей придётся учить и новую географию, и новую историю. И самое главное — спрятать поглубже свои державные мечты. Потому что в той же Италии появился в своё время политик, который обещал возродить едва ли не Римскую империю. Звали этого политика Бенито Муссолини. В финале этого политика вместе с его «дамой сердца» повесили на одной из площадей вверх ногами. Фантомные державные мечты в истории обходятся слишком дорого.

**minval.az**
**30 августа 2025**

# Успешные результаты COP29 вошли в историю как «Бакинский прорыв»



Успешные результаты COP29, состоявшейся в Баку в ноябре прошлого года, вошли в историю как «Бакинский прорыв».

Об этом говорится в обращении Президента Азербайджана Ильхама Алиева к участникам 13-й сессии Форума мозговых центров СВМДА под названием «Резонанс развития и безопасности: региональное сотрудничество и управление в институциональной трансформации СВМДА».

Глава государства в обращении также напомнил, что в период своего успешного председательства в Движении неприсоединения в 2019-2023 годах Азербайджан выступал против несправедливости в отношении стран Глобального Юга и работал над усилением позиций Движения на международной арене.

***«Заслуживает одобрения тот факт, что учредительная конференция платформы НПО Глобального Юга состоялась в этом году именно в Баку. В то же время в наши приоритеты в качестве председателя COP29 входили продвижение позиций стран Глобального Юга по климатической повестке дня, обеспечение потребностей наименее развитых стран, особенно малых островных государств»***, - подчеркнул Президент.

# Существуют благоприятные возможности для расширения азербайджано-китайских торгово-инвестиционных связей




В китайском городе Сямэнь провинции Фуцзянь начала работу 25-я Китайская международная ярмарка инвестиций и торговли (CIFIT).

Выставка, организованная при поддержке Министерства коммерции Китая и правительства провинции Фуцзянь, считается одной из важных международных платформ для продвижения двустороннего и многостороннего инвестиционного сотрудничества и обсуждения инвестиционных тенденций. В течение трех дней на ярмарке принимают участие представители правительств из 120 стран, 5 тыс. компаний и свыше 50 тыс. предпринимателей.

От Азербайджана на ярмарке принимает участие делегация под руководством заместителя премьер-министра, сопредседателя Азербайджано-китайской межправительственной комиссии по торгово-экономическому сотрудничеству Шахина Мустафаева. Это второе участие Азербайджана в Китайской международной ярмарке инвестиций и торговли.

Сначала состоялась встреча вице-премьера Государственного совета Китая (заместителя премьер-министра) Хэ Лифэна с высокопоставленными гостями, участвующими в мероприятии. На церемонии открытия он зачитал письмо Председателя Китая Си Цзиньпина, адресованное участникам выставки.

Выступая на церемонии открытия, заместитель премьер-министра Шахин Мустафаев отметил, что благодаря усилиям глав государств Ильхама Алиева и Си Цзиньпина за последние годы отношения дружбы и взаимовыгодного сотрудничества между Азербайджаном и Китаем поднялись на качественно новый уровень. В апреле этого года во время государственного визита Президента Азербайджана в Китай было подписано Совместное заявление об установлении отношений всестороннего стратегического партнерства между нашими странами, что стало историческим событием и открыло новую страницу в двусторонних отношениях. Напомнив о состоявшемся несколько дней назад визите Президента Ильхама Алиева в Китай, Ш. Мустафаев отметил, что вопросы, обсужденные в ходе встречи с лидером КНР Си Цзиньпином, придали новый импульс развитию отношений.

# Посол КНР в Баку Лу Мэй: Достигнут новый прорыв в реформе ШОС

Достигнут новый прорыв в реформе Шанхайской организации сотрудничества (ШОС). На саммите было принято решение объединить статусы государств-наблюдателей и партнеров по диалогу в единый класс «Партнер ШОС». Это важная мера по совершенствованию и укреплению операционного механизма ШОС, которая сделает структуру организации более оптимизированной, сотрудничество - более тесным, а ее функционирование - более эффективным, что будет способствовать укреплению чувства принадлежности к «большой семье ШОС».

Об этом сказала посол Китайской Народной Республики в Азербайджане Лу Мэй в ходе брифинга, посвященного итогам недавнего визита Президента Ильхама Алиева в КНР.

«ШОС - это первая международная организация, названная в честь китайского города, созданная при участии Китая и разместившая свою штаб-квартиру в КНР. За 24 года своего существования, ШОС, придерживаясь «Шанхайского духа», который включает в себя взаимное доверие, взаимную выгоду, равенство, консультации, уважение к многообразию цивилизаций и стремление к общему развитию, сохраняет динамичный импульс развития.

Сегодня ШОС превратилась в большую семью, состоящую из 27 стран, охватывающих три континента - Азию, Европу и Африку. Общая численность населения этих стран составляет почти половину населения планеты, а их экономика - четверть мировой. Она стала крупнейшей региональной организацией по численности населения и географическому охвату, а также наиболее перспективной с точки зрения развития.

# UNUTMAYAQ Kİ, UNUDARLAR...

## *Akademik İmam Mustafayevin xatirəsinə*



Ağ və qara ləkələrlə zəngin olan böyük tariximizdə son yüz il xüsusi yer tutur. Məhz bu dövrdə 3 dəfə dövlət quruluşu (1918, 1920, 1991), 3 dəfə əlifba (1929, 1939, 1992), 4 dəfə xalqın adı (1918, 1937, 1992, 1995) dəyişmiş, Azərbaycan Xalq Cümhuriyyəti yaradılmış, Rusiyanın Sovet adı altında 70 illik müstəmləkəçiliyi mövcud olmuş, müstəqilliyimiz bərpa edilmiş, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Qarabağ müharibəsi başlamış, "Əsrin müqaviləsi" imzalanmış, 20 Yanvar və Xocalı faciələri törədilmiş, işğal edilmiş torpaqlarımız azad olunmuş, ərazi bütövlüyümüz təmin edilmiş və digər çoxsaylı tarixi hadisələr baş vermişdir. Hərdən elə düşünürəm ki, yaxın tarix olduğuna və bu dövrdə yaşadığıma görə baş vermiş bütün hadisələr haqqında məlumatlıyam, ancaq eşitdikcə, oxuduqca, öyrəndikcə görürəm ki, hələ də bələd olmadığımız, yaxud əksəriyyətimizə qaranlıq olan nə qədər açılmamış səhifələr, yaxud yetərincə dəyərləndirmədiyimiz şəxsiyyətlər vardır.

Belə şəxsiyyətlərdən biri də Sovet dönəmində ölkəmizin 9-cu rəhbəri olmuş [Sergey Kirov (1921-1925); Ruhulla Axundov (1925-1926); Levon Mirzoyan (1926-1929); Nikolay Gikalo (1929-1930); Vladimir Polonski (1930-1933); Ruben Rubenov (Mkrtçyan) (1933); Mir Cəfər Bağırov (1933-1953); Mir Teymur Yaqubov (1953-1954)] İmam Mustafayevdir.

1910-cu il fevralın 25-də uzaq Qaxın (Zaqatala qəzasının) ucqar bir kəndində - Qax-Muğalda kasıb kəndli ailəsində dünyaya gələn, beş yaşında anasını, yeddi yaşında atasını itirərək həyatın çətin sınaqları ilə üzbəüz qalan, uşaqlıq illəri zəhmət, yoxsulluq və ciddi maddi-sosial çətinliklərlə müşayiət olunan İmam elm-təhsil yolunu seçərək istedadı, zəhmətsevərliyi, inadkarlığı sayəsində uğurla irəliləməyi bacarmışdır. İlk təhsilini kənd məscidi nəzdindəki məktəbdə (indiki Qax şəhər 1 nömrəli məktəb) almış, həyatındakı problemlərlə əlaqədar yalnız 18 yaşında Zaqatala Kənd Təsərrüfatı Texnikumunu bitirə bilmiş, sonra Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna (indiki Azərbaycan Dövlət Aqrar Universiteti) daxil olmuş, 1932-ci ildə təhsilini başa vuraraq həmin institutda Genetika, seleksiya və toxumçuluq kafedrasında aspirant (doktorant) olmuşdur.

1938-ci ildə Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasında "Çətin cücərən toxumların cücərdilməsinin tezləşdirilməsi üsulları" mövzusunda dissertasiya müdafiə edərək kənd təsərrüfatı üzrə namizədlik (fəlsəfə doktoru), sonra isə Leninqradda (indiki Sankt-Peterburq) "Azərbaycanın buğdaları və onların seleksiya və formaəmələgəlmə prosesində rolu" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək biologiya elmləri doktoru elmi dərəcələrini almışdır. 1950-ci ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

İmam Mustafayev 1934-1940-cı illərdə Balakən Rayon Torpaq Şöbəsində aqronomiya məntəqəsinin müdiri, Tərtər rayon kəndli-gənclər məktəbində müdir və müəllim, vaxtilə təhsil aldığı institutda dekan, kafedra müdiri, elm və tədris işləri üzrə direktor müavini vəzifələrində işləmişdir. O, 1940-1943-cü illərdə Azərbaycan SSR Xalq Dövlət Nəzarəti komissarının müavini (1941-ci ildə rəhbər işçilər sırasında Cənubi Azərbaycana göndərilmiş, onun təşəbbüsü ilə aparılan traktorlar və digər kənd təsərrüfatı texnikası əsasında orada ilk aqrotexnika stansiyaları yaradılmışdı), 1943-1947-ci illərdə Azərbaycan SSR Xalq Torpaq komissarının birinci müavini, 1947-1950-ci illərdə Azərbaycan SSR kənd təsərrüfatı naziri, Azərbaycan Kommunist Partiyası Gəncə Vilayət Komitəsinin birinci katibi (1952-1953), Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi (1950-1952; 1953-1954), 1954-1959-cu illərdə isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi (ölkə başçısı) vəzifələrində çalışmışdır.

Bəs hadisələr necə cərəyan etmişdi? Niyə bu qədər insanın arasından məhz İmam Mustafayev seçilmişdi? Bəzi hallarda olduğu kimi, burada da təsadüflər, "şahlıq quşunun birdən-birə gəlib onun başına qonması", "bəxtin gətirməsi", yoxsa "qismət" rol oynamışdı? Araşdırarkən məlum olur ki, bir çox parametrlər dövrün, özü də məhz həmin dövrün tələblərinə çox uyğun gəlir. Məsələn, "kəndin vurğunu", ölkəni müharibədən sonra düşdüyü ağır vəziyyətdən yalnız kənd təsərrüfatının çıxaracağına əmin olan Xruşşovun axtardığı əsl namizəd idi - buğda seleksiyaçısı, aqrar sənaye sahəsində akademik, Azərbaycanda Mərkəzi Komitənin kənd təsərrüfatı üzrə katibi, üstəlik, azad fikirli, demokratik düşüncəli, repressiyalara "əli bulaşmamış", adı heç bir şübhəli məsələlərdə hallanmayan, həm də nəinki xaricdə, heç respublika rəhbərliyində də qohumu olmayan, əsl sovet adamı, kasıbçılıqla və yetimliklə böyümüş, rus dilini də mükəmməl bilən kadr! Daha bundan yaxşısı ola bilməz! Təcrübəli, ağıllı, savadlı, gənc, boy-buxunlu, həm də yetim, deməli, həm də qohum-əqrəbasız, sovet dönəmində oxumuş, "adam olmuş", əli çörəyə çatmış, üstəlik, Stalinə çox da pərəstiş etməyən, beynəlmiləlçi və s.

1953-cü il dekabrında İmam Mustafayevi Moskvaya çağırdılar. Həmin il dekabrın 14-də Mərkəzi Komitənin Birinci katibi (de-fakto ölkə başçısı) olan Nikita Xruşşov şəxsən onu qəbul etdi:

***- İmam Daşdəmiroviç, sənədlərinizə baxmışam, belə cavansınız, artıq akademik? Afərin! Xoşum gəldi!***

Belə girişdən sonra 10-15 dəqiqəlik söhbət zamanı respublikadakı vəziyyəti müzakirə edirlər. Ayrılanda Xruşşov:

***- Sovet kəndini ancaq yaxşı kadrlarla vəziyyətdən çıxara bilərik! Sizi Birinci katib məsləhət biləcəyik! Gedin, hazırlaşın, ancaq hələlik heç kəsə heç nə! Aydındır?***

***- Bəli, yoldaş Nikita Sergeyeviç!***

Beləliklə, İmam Mustafayev Bakıya qayıdır, 1954-cü ilin yanvar ayında Azərbaycana gələn Sov.İKP MK-nın məsul işçiləri səfərlərinin yekunları barədə Nikita Xruşşovun adına hazırladıqları hesabatda Azərbaycan KP MK-nın Birinci katibi, "Mircəfər Bağırovun adamı", hətta "kölgəsi" hesab edilən Mirteymur Yaqubovun və Nazirlər Sovetinin sədri Teymur Quliyevin işini mənfi qiymətləndirmiş və onların vəzifələrindən uzaqlaşdırılmasını tövsiyə etmiş, Birinci katib vəzifəsinə həmin dövrdə Azərbaycan KP MK-nın kənd təsərrüfatı üzrə katibi vəzifəsində işləyən İmam Mustafayevin namizədliyini irəli sürmüşdülər. Nikita Xruşşovda 1953-cü ilin dekabrındakı görüşdən sonra müsbət təəssürat yaradan İmam Mustafayev məqbul görünmüş və yanvarın 25-də onun Azərbaycana Birinci katib olmasına razılıq vermişdi.

Beləliklə, 1954-cü il fevralın 12-dən 16-dək Bakıda keçirilən Azərbaycan KP MK-nın XX qurultayı Kommunist partiyasının tarixində ilk dəfə hesabat dövrü üçün Mərkəzi Komitənin işini qeyri-qənaətbəxş hesab etmiş, "köhnə qaydalardan" əl götürməyi, yeni iş metodları ilə fəaliyyətə başlamağı zəruri hesab etmişdi. Lakin belə yanaşma heç də hamının ürəyindən deyildi, 589 nümayəndədən 64-ü Birinci katib vəzifəsinə təklif edilən İmam Mustafayevin əleyhinə səs verdi. Ölkə başçısı tərəfindən namizədliyi irəli sürülən şəxsin bu qədər əleyhdarının olması bir tərəfdən demokratiyanın az-çox mövcudluğuna dəlalət edirdisə də, digər tərəfdən köhnə idarəetməni dəstəkləyənlərin olduğuna, İmam Mustafayevin hələ tam qəbul edilməməsinə işarə idi. Çünki növbəti, XXI qurultayda onun əleyhinə cəmi iki nəfər səs vermişdi. Beləliklə, İmam Mustafayev 1954-cü ilin fevralından Azərbaycana rəhbərlik etməyə başladı.

Yuxarıda yazılan siyahıdan göründüyü kimi, Sovet ideologiyasının yaratdığı çərçivələrə görə Azərbaycanda səkkiz rəhbərdən beşi qeyri-azərbaycanlı (ikisi erməni) olmuş, üç milli kadrdan ikisinin hakimiyyət müddəti isə bir ildən artıq çəkməmişdi. Bəs İmam Mustafayev kimdir ki, həmin mürəkkəb şəraitdə milli kadr kimi ona etimad göstərilmiş, beş il bu vəzifədə duruş gətirə bilmişdir? Seçkili, demokratik olmayan bir cəmiyyətdə nə üçün onu beş ildən sonra vəzifəsindən azad ediblər, on il, on beş il yerində saxlamayıblar, axı 1959-cu ildə SSRİ rəhbərliyində heç bir radikal dəyişiklik olmamışdı? O dövrün qaydalarına görə, müttəfiq respublikaların rəhbərlərinin taleyini yalnız SSRİ-nin dövlət başçısı ilə şəxsi münasibətləri həll edirdi, onun Nikita Xruşşovla münasibətlərində soyuqluq niyə əmələ gəlmişdi? Bəs o, beş il ərzində xalq üçün nə etmişdir?

**(davamı gələn sayımızda)**



*professor Misir Mərdanov*

# 8 ayda əcnəbilərə 7 milyon manata yaxın ƏDV qaytarılıb

Cari ilin yanvar-avqust ayları ərzində dövlət büdcəsindən 202 milyon 30,6 min manat məbləğində vəsait fiziki və hüquqi şəxslərə geri qaytarılıb.

Maliyyə Nazirliyindən bildirilib ki, geri qaytarılan vəsaitin 6 milyon 944,9 min manatı əcnəbilər tərəfindən ölkə ərazisində alınan istehsal və kommersiya məqsədi daşınmayan mallara görə ödənilən ƏDV-nin qaytarılmasına aiddir. Bu məbləğə tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlərə görə qaytarılan ƏDV də daxildir.

Fiziki şəxs olan istehlakçılara isə işğaldan azad edilmiş ərazilərdə yerləşən mehmanxanalar tərəfindən göstərilən xidmətlərə, pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən, o cümlədən özəl tibbi praktika ilə məşğul olan şəxslərdən alınan mallara və xidmətlərə görə ödənilən ƏDV-nin 124 milyon 683,2 min manatı geri ödənilib. Həmçinin, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin 18 milyon 817,8 min manatı fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.

Hesabat dövründə artıq ödənilmiş vergilər, dövlət rüsumu, faizlər və maliyyə sanksiyaları üzrə isə dövlət büdcəsindən geri qaytarılan vəsaitin məbləği 51 milyon 584,7 min manat təşkil edib.



# Naxçıvanda qeyri-dövlət sektorundan vergi daxilolmaları 20%-ə yaxın artıb

Bu ilin yanvar-avqust ayları ərzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə büdcəyə 160,6 milyon manatdan çox vergi daxil olub ki, bu da ötən ilin eyni dövrünə nisbətən 13,7 faiz və ya 19,4 milyon manat çoxdur. Bu barədə Trend dövlət xidmətinə istinadən xəbər verir.

Məlumata görə, qeyri-dövlət sektorundan daxilolmalar 110,4 milyon manat təşkil edib. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə, bu sektordan vergi daxilolmaları 18,3 milyon manat və ya 19,9 faiz artıb. Ödənilən vergilərin 68,7 faizi qeyri-dövlət sektorunun, 31,3 faizi isə dövlət sektorunun payına düşüb.

Bundan başqa, 2025-ci ilin yanvar-avqust aylarında Naxçıvan Muxtar Respublikasında işsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 3 milyon manatdan çox olub. Həmin dövrdə icbari tibbi sığorta haqları üzrə ödəmələr 2024-cü ilin eyni dövrünə nisbətən 10,3 faiz artıb və 20,2 milyon manatdan artıq təşkil edib.

# "Orta Dəhliz dənizə çıxışı olmayan ölkələr üçün həyati əhəmiyyətlidir"

"Orta Dəhliz dənizə birbaşa çıxış olmayan ölkələr üçün həyati əhəmiyyət kəsb edir".

Bunu Amerika Ticarət Palatasının Qazaxıstandakı icraçı direktoru Ceff Erlix Amerika biznes nümayəndə heyətinin Bakı səfərinin yekunlarına dair keçirilmiş brifinqdə bildirib.



"Əlbəttə, biz burada, Azərbaycanda həmkarlarımızla nahardan təzəcə qayıtmışıq. Ameri-kan-Azərbaycan Ticarət Palatasına bu təşəbbüs üçün təşəkkür edirəm. Natiq, bildiyiniz kimi, çox təvazökar insandır, amma bu ideya ona illər öncə məxsus idi və biz yalnız indi onu gerçəkləşdirə bildik.

Beləliklə, mən burada 107 şirkəti, əsasən, beynəlxalq amerikalı şirkətləri təmsil edirəm. Mərkəzi Asiyada biznes icması üçün, əlbəttə ki, xam maddələr və sənaye məhsulları üçün davamlı ixrac marşrutlarının mövcudluğu son dərəcə vacibdir. Çünki Qazaxıstan sənaye məhsullarının, neft-kimya sənayesinin inkişafına çalışır, yəni yalnız xam neft yox, həm də neft-kimya məhsulları. Şaxələnmiş nəqliyyat marşrutlarının olması son dərəcə vacibdir", - deyə o bildirib.

Erlix Qazaxıstan və Azərbaycanın dənizə çıxışı olmayan ölkələr olduğunu qeyd edib.

***"Bəli, onların Xəzər dənizinə çıxışı var, amma hələ də dənizə çıxışı olmayan ölkələr hesab olunurlar. Buna görə də bu marşrutun açılması və gücləndirilməsi son dərəcə vacibdir. Dənizə çıxışı olmayan və malların ixracı və idxalından asılı olan ölkələr üçün nəqliyyat infrastrukturu firavanlığın açarıdır. Onun olmaması irəliləyişi məhdudlaşdırır; onunla isə gələcək ümidverici görünür"***, - deyə o əlavə edib.

# Bu ilin 8 ayında istehlak qiymətləri indeksi 2-7 faiz artıb



Cari ilin avqust ayında istehlak qiymətləri indeksi ötən ilin avqust ayına nisbətən 104,9 faiz, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 106,6 faiz, qeyri-qida məhsulları üzrə 102,1 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 104,9 faiz təşkil edib.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, cari ilin avqust ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,4 faiz, yanvar-avqust aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 105,6 faiz təşkil edib.

Bu ilin avqust ayında qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,3 faiz, yanvar-avqust aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 106,6 faiz təşkil edib.

Cari ilin avqust ayında əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından daha çox bahalaşma mal və qoyun ətinin, südün, yumurtanın, günəbaxan və qarğıdalı yağlarının, bananın, albalının, əriyin, qarpızın, ağ kələmin, göyərtinin, xiyarın, göy lobyanın, yerkökünün, sarımsağın, şokolad məmulatlarının, ucuzlaşma isə limonun, almanın, armudun, yemişin, üzümün, gül kələminin, brokkolinin, pomidorun, şirin bibərin, badımcanın, süfrə çuğundurunun, soğanın, kartofun qiymətlərində müşahidə olunub. Digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Hesabat dövründə qeyri-qida məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz, yanvar-avqust aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 102,6 faiz təşkil edib. Avqust ayında əvvəlki ayla müqayisədə qeyri-qida məhsullarından bahalaşma şəxsi gigiyena və zərgərlik məmulatlarının, ucuzlaşma isə yay geyimlərinin qiymətlərində müşahidə olunmuşdur. Digər qeyri-qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Avqust ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,6 faiz, yanvar-avqust aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 106,9 faiz təşkil edib. Avqust ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən bahalaşma əsasən geyimlərin kimyəvi təmizlənməsinin, beynəlxalq telefon danışıqlarının, hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin, restoran və kafelər tərəfindən göstərilən iaşə xidmətlərinin qiymətlərində müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

# Dünyanın əsas elmi mərkəzlərinin reytinq göstəriciləri

***Dünyanın aparıcı elmi tədqiqat mərkəzlərinin reytinqləri dərc edilib. İlk onluqda Çinin 7 elmi tədqiqat mərkəzi yer alıb.***



Məlum olduğu kimi, dünya universitetlərinin qlobal reytinq cədvəlləri 20 ildir ki, tərtib edilir. Bu reytinqlərdə bizim universitetlər ənənə üzrə daim aşağı divizionda yer tuturlar. Son illər universitetlərdən əlavə dünyanın aparıcı elmi tədqiqat mərkəzlərinin də reytinqləri tərtib edilir. Təbii ki, elm və təhsilin zəif maliyyələşməsi və bu səbəbdən də son 30 ildə heç bir ciddi nailiyyəti olmayan milli universitetlərimiz və tədqiqat mərkəzlərimiz belə reytinqlərdə təmsil oluna bilmirlər. Bu vəziyyətin yaranmasında elm və təhsil sahəsində yarımçıq maliyyələşmədən başqa, yanlış kadr siyasəti və səmərəsiz idarəetmənin də ciddi təsiri olmuşdur.

Dünyanın aparıcı elmi tədqiqat mərkəzlərinin reytinqlərində Rusiya Elmlər Akademiyası (REA) Çinin 35 elmi tədqiqat institutundan aşağı mövqedə məskunlaşmışdır. Onu da nəzərə alaq ki, REA-nın tərkibində yüzlərlə elmi-tədqiqat institutu var.

2023-cü ilin sonunda Rusiya Elmlər Akademiyası (REA) "Nature" jurnalının tərtib etdiyi "dünyanın 500 aparıcı tədqiqat mərkəzinin reytinqi"ndə 71-ci yerdən 94-cü yerə düşüb. Rus elminin "məbədi" olan REA Çinin 35 universiteti və elmi müəssisəsindən daha aşağı pillədədir.

***İl ərzində REA alimləri fizika üzrə 507 məqalə nəşr etdiriblər. Fizika üzrə məqalə nəşrinə görə rus alimləri 57-ci yerdədirlər. 2023-cü ildə REA ümumən 768 sayda məqalə dərc edib, beləliklə, il ərzində rusiyalı akademiklərin nəşr etdiyi əsərlərin sayı 34% azalıb.***

Reytinqdə REA ilə yanaşı, Moskva Dövlət Universiteti (MDU) da yer alıb. MDU 413-cü yerdən 420-ci yerə düşüb. MDU əməkdaşları 167 tədqiqat (bir il əvvəlkindən 38% az) dərc etmişlər, bunların demək olar ki, hamısı (164) təbiət elmlərinə aiddir. Rusiyanın digər tədqiqat mərkəzləri bu reytinqə daxil edilməyib.

***Dünyanın 500 aparıcı tədqiqat mərkəzi siyahısına il ərzində 7554 məqalə dərc etdirən və bu sayda 9% artım olan Çin Elmlər Akademiyası liderlik edir. 2-ci yerdə 3763 elmi məqalə ilə Harvard Universiteti (ABŞ) gəlir, bu, bir il əvvəlkindən 52 tədqiqat azdır.***

Daha altı Çin tədqiqat mərkəzi də ilk 10-luğa daxil olub. Onların arasında Çin Elmlər Akademiyası Universiteti, Çin Elm və Texnologiya Universiteti, Pekin Universiteti, Nankin Universiteti, Zhejiang Universiteti və Tsinxua Universiteti var. Reytinq tərtibçilərinin qeyd etdiyi kimi, belə vəziyyət ilk dəfədir ki, yaranır: hələ 2015-ci ildə ilk 10-luğa yalnız bir Çin tədqiqat mərkəzi daxil edilmişdi. Eyni zamanda, ilk yüzlüyə Çindən olan 37 tədqiqat mərkəzi daxildir.

Təbiət İndeksi reytinqi tərtib edilərkən, 2023-cü ildə nəşr olunan 145 elmi jurnalda 17 min elmi müəssisənin nəşrləri nəzərə alınıb. Ümumilikdə Çin elmi fəallıqda dünyada liderdir. ABŞ ikinci, Almaniya isə üçüncü yerdədir. İlk 10-luğa həmçinin Böyük Britaniya, Yaponiya, Fransa, Kanada, Cənubi Koreya, Hindistan və İsveçrə daxildir.

2023-cü ildə Moskva dünyanın ən yaxşı 50 aparıcı elmi mərkəzi siyahısında mövqeyini itirdi. Təbiət elmləri reytinqində yenidən 60-cı yerə düşdü. 2023-cü il reytinqinə rus alimlərin 749 nəşri daxildir. Bu rəqəm - Çin alimlərinin məqalələri sayından 10,5 dəfə (7841), ABŞ alimlərindən 6 dəfə, Yaponiya alimlərindən (2410) 3,2 dəfə, C.Koreya alimlərindən isə (1637) 2,2 dəfə azdır.

***Dövlətin elmə ayırdığı maliyyəni azaltması və alimlərin kütləvi şəkildə xaricə köçməsi ilə Rusiya qlobal elmdə öz mövqeyini ilbəil zəifladir. Son 20 ildə ölkədə tədqiqatçıların sayı 25% azalıb və hesablamalara görə, 2022-ci ilin əvvəlinə ölkənin bütün müasir tarixində alimlərin sayı minimum həddə - 322 minə düşmüşdür.***

Ukrayna ilə müharibə və kütləvi səfərbərlik yeni "beyin axını" dalğasına səbəb olmuşdur. Yüzlərlə alim, o cümlədən dünya səviyyəli mütəxəssislər müharibə əleyhinə mövqeləri, hakimiyyətin təzyiqləri və təhlükəsizlik qüvvələrinin birbaşa təhdidləri səbəbindən ölkəni tərk etmişlər. Rusiyanın elm və təhsilində son illər olan gerilik, onun gələcək inkişafı üçün ciddi problemlər yaradacaqdır.

Bu fonda bizim elm hansı mövqedədir? Təbii ki, təhsilimiz hansı mövqedədirsə, elmimiz də o mövqedədir. Təəssüf ki, AMEA-nın TN ilə birləşməsi də elmin inkişafı baxımından heç bir nəticə vermədi.

**dos. İlham Əhmədov,**
**təhsil üzrə ekspert**

# Mərkəzi Gömrük Hospitalında yeni rezidentlərlə görüş keçirilib




Sentyabrın 2-də Mərkəzi Gömrük Hospitalında rezidentura təhsilinə yeni qəbul olunmuş həkim-rezidentlərlə görüş keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəisi-Baş həkim, t.e.d., Dr. Bəxtiyar Musayev, rəis müavini Nabil Seyidov, əməkdaşlar və həkim-rezidentlər iştirak ediblər.

İlk öncə Mərkəzi Gömrük Hospitalının rəisi-Baş həkimi Bəxtiyar Musayev çıxış edərək Mərkəzi Gömrük Hospitalının Azərbaycan səhiyyəsində xüsusi yeri olduğunu bildirib və burada həyata keçirilən unikal əməliyyatlar barədə, Hospitalın fəaliyyəti, pandemiya dövründə kovidli xəstələrin müalicəsində Azərbaycanda ilk dəfə uğurla tətbiq olunan EKMO cihazı, Hospitalın fəaliyyəti, eləcə də xarici tərəfdaşlar olan Florence Nightingale Xəstəxanalar Qrupu, Böyük Britaniyanın Birmingem Qadın və Uşaq Hospitalı və digər tibb müəssisələri ilə əməkdaşlıq imkanları barədə geniş məlumat verib. Həmçinin, Baş həkim Bəxtiyar Musayev bildirib ki, Mərkəzi Gömrük Hospitalı gənc mütəxəssislərə nəzəri biliklərlə yanaşı, ən müasir texnologiyalar üzərində praktiki təcrübə qazanmaq üçün geniş imkanlar yaradır.

Dr.Bəxtiyar Musayev çıxışının sonunda yeni rezidentləri təbrik edərək onlara böyük uğurlar arzulayıb, həmçinin təhsilləri müddətində daim öyrənməyə, elmi yenilikləri izləməyə və xəstələrin sağlamlığını hər şeydən üstün tutmağa çağırıb.

Daha sonra Dr. İsmayıl Əfəndiyev Mərkəzi Gömrük Hospitalında rezidenturaya yeni qəbul olunmuş rezidentləri təbrik edib, onların yüksəkixtisaslı həkim kimi yetişməsi, elmi araşdırmaların aparılması üçün yaradılan imkanlar haqqında ətraflı məlumat verib. Öz çıxışında Dr. İsmayıl Əfəndiyev rezidentlər üçün beynəlxalq mübadilə proqramlarda iştirak etmək imkanları, tədris proqramının faydalı yerinə yetirilməsi, eləcə də rezidentlərin öz sahələri üzrə xarici ölkələrdə və ölkədaxili konfranslarda, konqreslərdə, rotasiyalarda iştirak etmək imkanları barədə danışıb. Belə ki, yerli və beynəlxalq ekspertlərin iştirakı ilə keçirilən bu konfranslar onların gələcəkdə peşəkar həkim kimi yetişməsində əhəmiyyətli rola malikdir. Tədbirin sonunda həkim-rezidentlərin sualları cavablandırılıb.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük**
**Hospitalının**
**PR mütəxəssisi**

## Tibbdə PR

# Gələcəyin uşaq cərrahları – bilik, zəhmət və peşəkarlığa aparan yol

Mərkəzi Gömrük Hospitalının Uşaq Cərrahiyyəsi şöbəsi gələcəyin peşəkar həkimlərini hazırlayan rezident proqramı ilə fərqlənir. Burada təhsil alan həkim-rezidentlərimiz uşaq cərrahiyyəsi sahəsində ən son bilik və texnologiyalara yiyələnir, nəzəri və göstərmək üçün innovativ metodlara yiyələnir və hər əməliyyata böyük bir məsuliyyətlə yanaşırlar. Uşaq Cərrahiyyəsi şöbəsinin rəisi, uşaq cərrahı Vüsal Cəfərov, uşaq cərrahları - Toğrul Piriyev və Alşan Paşazadə onlara hər addımda dəstək olur, bilik



praktiki bacarıqlarını inkişaf etdirərək, gələcəyin aparıcı uşaq cərrahları olmaq üçün yorulmadan çalışırlar. Onların hər biri gələcəyin tibb dünyasında öz sözünü deyəcək savadlı, bacarıqlı və insanpərvər mütəxəssislərdir.

Bu mühüm sahədə həkim-rezidentlərin peşəkar inkişafına böyük töhfə verən Mərkəzi Gömrük Hospitalının Uşaq Cərrahiyyəsi şöbəsinin rəisi, yüksəkixtisaslı uzman uşaq cərrahı Vüsal Cəfərov, uşaq cərrahları - Toğrul Piriyev və Alşan Paşazadənin rəhbərliyi altında şöbənin gənc həkim-rezidentləri yenidoğulmuş körpələrdən başlayaraq, mürəkkəb yaşlarda uşaqların ən müasir metodlarla cərrahi problemlərinin diaqnostikası və müalicəsində fəal iştirak edirlər. Onlar yüksək səviyyəli tibbi xidmət və təcrübələrini bölüşürlər. Uşaq cərrahlarımızın fədakar zəhmətinə və yüksək peşəkarlığına görə onlara dərin minnətdarlığımızı ifadə edirik.

Birinci və üçüncü illərini uğurla başa vuran gənc həkim-rezidentlərimizi ürəkdən təbrik edir, gələcək illərdə daha böyük uğurlar və parlaq nailiyyətlər arzulayırıq!

Həmçinin, 2025-ci ildə Uşaq Cərrahiyyəsi rezidentura proqramına qoşulan gənc həkim-rezidentimizi səmimi qəlbdən təbrik edir və böyük Gömrük ailəsinə xoş gəlmisiniz deyirik!

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük**
**Hospitalının PR mütəxəssisi**

# 13 yaşadək smartfona sahib olmaq psixi sağlamlığa ciddi zərər vura bilər



***13 yaşadək smartfona sahib olmaq gələcəkdə psixi sağlamlıq üçün ciddi risklərlə əlaqələndirilir. Bu nəticəyə Sapien Labs tədqiqatçıları dünyanın müxtəlif yerlərindən 100 000-dən çox insanın məlumatlarını təhlil etdikdən sonra gəliblər.***

Tədqiqat müəllifləri qeyd edirlər ki, əsas rolun sahibi smartfonun özü deyil, sosial şəbəkələrə çıxışdır. Sosial şəbəkələrdəki alqoritmlər zərərli məzmunu gücləndirə və insanı daim sosial müqayisəyə sövq edə bilir. Nəticədə kiberbulinq riski artır, yuxunun keyfiyyəti aşağı düşür, ailədaxili münaqişələr kəskinləşir.

Bu amillər çox vaxt gənc yaşda üzə çıxan problemlərin formalaşmasına səbəb olur. Təhlil göstərib ki, ilk smartfonunu 13 yaşdan əvvəl əldə edən gənclərin 18-24 yaş aralığında psixi rifah göstəriciləri nəzərəçarpacaq dərəcədə aşağı olub. Məsələn, cihazdan istifadə etməyə 5 yaşında başlayanlar orta hesabla MHQ psixi sağlamlıq şkalasında cəmi 1 bal toplayıblar, halbuki 13 yaşında telefon əldə edənlərdə bu göstərici 30 bala çatıb. Smartfona erkən sahib olmaqla ən sıx əlaqəli xüsusi simptomlara intihar düşüncələri, aqressiya, reallıqdan qopma və hallüsinasiyalar daxildir. Erkən yaşda smartfona sahib olmaq qadınlarda özünə qiymətin, özünə inamın və emosional dayanıqlığın pisləşməsi, kişilərdə isə sabitliyin, sakitliyin və empatiyanın azalması ilə əlaqələndirilir. Təhlil göstərib ki, bu problemlərin təxminən 40%-i sosial şəbəkələrə erkən çıxışla izah olunur, əlavə amillərə isə uğursuz ailə münasibətləri (13%), kiberbulling (10%) və yuxu pozuntuları (12%) daxildir. Smartfona erkən sahib olmağın təsiri bütün regionlarda gənclər arasında eyni dərəcədə müşahidə olunur, COVID-19 pandemiyası isə mənfi meylləri daha da gücləndirə bilərdi. Mütəxəssislər alkoqol və tütün üçün mövcud məhdudiyyətlərlə müqayisə ediləbiləcək tənzimləmə tədbirlərinə çağırırlar. Təkliflər arasında 13 yaşdan kiçik uşaqlar üçün smartfonlara çıxışın məhdudlaşdırılması, məcburi rəqəmsal savadlılıq təhsili, həmçinin sosial şəbəkələrdə yaş məhdudiyyətlərinə riayət olunmasına nəzarətin sərtləşdirilməsi var.

Bəzi ölkələr artıq bu istiqamətdə addımlar atıblar: Fransada, Niderlandda, İtaliyada və Yeni Zelandiyada məktəblərdə smartfonlardan istifadəyə qismən məhdudiyyət qoyulub. ABŞ-da da bir neçə ştat qadağalar və ya məhdudiyyətlər tətbiq edib, o cümlədən Nyu-York təhsil müəssisələrində smartfonların tam qadağan olunduğunu elan edib. Alimlər vurğulayırlar ki, smartfonlara erkən çıxış ilə psixi sağlamlığın pisləşməsi arasındakı səbəb-nəticə əlaqəsi daha dərindən araşdırılmalıdır. Lakin aşkar edilmiş risklərin miqyası onları görməməzlikdən gəlmək üçün həddindən artıq böyükdür. Araşdırmanın aparıcı müəllifi Tara Thiagarajan-ın sözlərinə görə, təkzibedilməz sübutları gözləmək gələcək nəsli vaxtında qorumaq imkanımıza başa gələ bilər.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Respublikası Baş Nazirinin sabiq müavini Abid Şərifova qardaşı
**ŞAHİD ŞƏRİFOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Azərbaycan Respublikası Baş Nazirinin sabiq müavini Abid Şərifova qardaşı
**ŞAHİD ŞƏRİFOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Akademik Ziyad Səmədzadə və ailəsi «İqtisadiyyat» qəzetinin baş redaktor müavini Yeganə Məmmədovaya qardaşı
**NAZİM ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və «İqtisadiyyat» qəzetinin kollektivi qəzetin baş redaktor müavini Yeganə Məmmədovaya qardaşı
**NAZİM ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev**

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlmelidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**